ONZ Professional Accounting & Audit Services

# JL TECH
# MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## Maliyyə Hesabatları

Müstəqil Auditorun Hesabatı ilə birlikdə

31 dekabr 2022-ci il tarixində başa çatan il üzrə

JL TECH MMC
"ONZ ACCOUNTING" MMC-nin
direktoru -auditoru Nurlan Orucova

Bakı ş. 24 İyul 2023-cü il

Bu məktub maliyyə məlumatlarından ibarət maliyyə hesabatlarının JL TECH MMC-nin (bundan sonra "Cəmiyyət"adlandırılacaq) 31 dekabr 2022-ci il tarixinə olan maliyyə vəziyyəti və eləcədə, (Maliyyə vəziyyəti haqqında Hesabat, maliyyə fəaliyyətinin nəticələri haqqında Hesabat, xalis aktivlərdə (kapitalda) dəyişikliklər haqqında Hesabat, Pul Vasitələrinin Hərəkəti haqqında Hesabat) müvafiq olaraq, apardığı əməliyyatlar, bitmiş il üzrə pul vəsaitlərinin hərəkəti barədə həqiqi və ədalətli rəy təmin edilməsi məqsədilə JL TECH MMC-də 24 İyul 2023-cü il tarixin də apardığınız maliyyə hesabatlarının auditi ilə əlaqədar təqdim edilir. Bununla, biz Maliyyə vəziyyəti haqqında Hesabatın, maliyyə fəaliyyətinin nəticələri haqqında Hesabatın, xalis aktivlərdə (kapitalda) dəyişikliklər haqqında Hesabatın, Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabatın, müvafiq olaraq maliyyə hesabatlarının düzgün təqdim edilməsi üzrə məsuliyyətimizi təsdiq edirik.

Eyni zamanda, biz aşağıda verilən məlumatlara müəssisə ilə bağlı məlumatların daxil edildiyini təsdiq edirik. Nəzərdə tutulan məlumatlara aşağıda göstərilənlər daxildir:

- Rəhbərlik və ya Cəmiyyətin daxili nəzarətində əhəmiyyətli rola malik əmakdaşların aidiyyəti olduğu və ya maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərə bilən qanunsuzluqlar baş verməmişdir.

- Biz əlaqəli tərəflərin açıqlanması ilə bağlı təqdim edilən malumatın tamlığını təsdiq edirik.
- Maliyyə hesabatlarında səhvlər və o cümlədən, əhəmiyyətli səhvlər yoxdur.

- Cəmiyyət yerinə yetirməmə hallarında maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərə biləcək müqavilənin bütün aspektlərini yerinə yetirmişdir. Tələblərin yerinə yetirilməməsi hallarında maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərə biləcək tənzimləyici orqanların tələblərinin yerinə yetirilməməsi hallarına yol verilməmişdir.

- Maliyyə hesabatlarında əks olunan aktivlərin və passivlərin təsnifatı və ya dəyərini əhəmiyyətli dərəcədə dəyişə bilən planlarımız və ya niyyətimiz yoxdur.

- Cəmiyyətin bütün aktivlərə hüququ vardır, şirkətin aktivləri üzərində həbs qoyma halları yoxdur.
- Həm potensial, həm də faktiki olmaqla bütün öhdəliklər müvafiq qaydada qeydə alınmış və ya açıqlanmışdır.

- Dövrün sonunadək maliyyə hesabatlarında düzəlişlərin aparılmasını tələb edən heç bir sonrakı hadisə baş verməmişdir.

- Mülkü iddia üzrə heç bir iddia qəbul edilməmişdir və ya qəbul edilməsi ehtimal edilmir.

- Nağd pul və ya investisiya hesablarımızdan heç birində rəsmi və ya qeyri-rəsmi təzminat üzrə sazişlər yoxdur.
- ARMB-nın yanında Maliyyə Monitorinqi Xidmətinin saytında yerləşdirilən cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər emlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələş-dirilməsinə qarşı mübarizə çərçivəsində Azərbaycan Respublikasının qanunvericiliyinə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, habelə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının aidiyyəti qətnamələrinə əsasən barələrində sanksiyalar tətbiq edilməli olan fiziki və ya hüquqi şəxslərin Ümumi Siyahısında göstərilən şəxslərlə və ölkələrlə şübhə doğuracaq heç bir əməliyyat aparılmamışdır.

Direktor: İsayev A. M.

Azərbaycan Respublikası "JL TECH" MMC JOINT LOGIC TECHNOLOGIES "JL TECH" LLC The Republic of Azerbaijan

Baş mühasib:



Khojaly ave. 55, Xatai district AGA Business Centre, 9th Floor AZ1025, Baku, Azerbaijan Mob: +994 50 212 33 02

JL TECH MMC

01.01.2022-ci ildən 31.12.2022-ci ilədək olan dövrün maliyyə hesabatlarının auditinə dair

Rəhbərliyin Məsuliyyəti Haqqında

# HESABAT

Rəhbərliyin məsulyyəti haqqında hesabat JL TECH MMC (bundan sonra "Cəmiyyət" adlandırılacaqdır) 31.12.2022-ci il tarixə maliyyə hesabatlarının auditi ilə bağlı rəhbərliyin məsuliyyətini müstəqil auditorların məsuliyyətindən fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik 01.01. 2022-ci ildən 31.12. 2022-ci ilədək olan dövrün maliyyə-təsərrüfat fəaliyyətini əks etdirən maliyyə hesabatların hazırlarmasına görə məsuliyyət daşıyır.

Hesabatları hazırlayarkən Cəmiyyətin rəhbərliyi aşagıdakılara cavabdehdir:

- Müvafiq mühasibat uçotu prinsiplərinin seçilməsi və onun ardıcıl tətbiqinə;
- Ədalətli və düzgün qərarların verilməsinə və qiymətləndirmələrin aparılmasına;
- Cəmiyyətin ilkin maliyyə hesabatlarının hesablama metodu və fasiləsizlik prinsipi əsasında hazırlanmasına;
- Cəmiyyətin ilkin maliyyə hesabatlarının hazırlanması zamanı əsas keyfiyyət xüsusiyyətlərinin, o cümlədən şəffaflıq (aydınlıq), münasiblik, əhəmiyyətlilik, etibarlılıq, düzgün təqdimat, mahiyyətin formadan üstünlüyü, neytrallıq,ehtiyatlılıq, tamlıq və müqayisəlilik xüsusiyyətlərinin nəzərə alınmasına.

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuliyyət daşıyır:

- Cəmiyyətdə effektiv və sağlam daxili nəzarət sisteminin tətbiqinə və məlumatların saxlanılmasına;
- Cəmiyyətdə maliyyə vəziyyətini hər zaman dəqiq açıqlayan muhasibat yazılışlarının dəqiq və düzgün saxlanılmasına;
- Mühasibat yazılışlarının Azərbaycan Respublikasının qanunvericiliyinə və mühasibat uçotu qaydalarına uyğun aparılmasına;
- Saxtakarlıq hallarının, digər səhv və pozuntuların müəyyən edilməsinə və qarşısının alınmasına.

JL TECH MMC-nin maliyyə-təsərrüfat fəaliyyətini əks etdirən maliyyə hesabatlarının auditinə dair Rəhbərliyin Məsuliyyəti haqqında Hesabatı Cəmiyyətin Rəhbərliyi tərəfindən təsdiq olunmuşdur.

Direktor:

İsayev A.M.

Azərbaycan Respublikası "JL TECH" MMC LOGIC TECHNOLOGIES "JL TECH" LLC The Republic of Azerbaijan

Baş mühasib:



Khojaly ave. 55, Xatai district AGA Business Centre, 9th Floor AZ1025, Baku, Azerbaijan Mob: +994 50 212 33 02

# MÜSTƏQİL AUDİTORUN HESABATI

## JL TECH MMC -nin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə

### Rəy

Bizim fikirimizcə,əlavə edilən maliyyə hesabatları Şirkətin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan illər üzrə maliyyə nəticələrini bütün əhəmiyyətli akspektlər baxımından Beynəlxalq Mühasibat Uçotu Standartlarına uyğun olaraq düzgün əks etdirir.

### Auditin predmeti

Şikayətin maliyyə hesabatlarına aşağıdakılar daxildir:

- 31 dekabr 2022-ci il tarixində maliyyə vəziyyəti haqqında hesabat;
- həmin tarixdə tamamlanan il üzrə mənfəət və ya zərər haqqında hesabat;
- həmin tarixdə tamamlanan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabat
- həmin tarixdə tamamlanan il üzrə kapitalda dəyişikliklər haqqında hesabat və
- əsas uçot siyasətlərinin qısa xülasəsi,digər izahedici məlumatlar daxil olmaqla maliyyə hesabatları ilə bağlı qeydlər.

### Rəy üçün əsas

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq.Biz hesab edirik ki,əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

### Maliyyə Hesabatlarının Hazırlanması üzrə Rəhbərliyin Məsuliyyəti

Rəhbərlik hazırkı maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə,həmçinin fırıldaqçılıq və ya səhv üzündən əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin fikrincə zəruri olan daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

### Auditorun Məsuliyyəti

Bizim məsuliyyətimiz apardığımız audit əsasında həmin maliyyə hesabatları üzrə rəy bildirməkdir.Bu auditi Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun aparmışıq.Həmin Standartlar bizdən etik normalara riayət etməyi,auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.Auditə maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir.Seçilmiş prosedurlar auditorun mülahizəsindən,eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır.Həmin riskləri qiymətləndirərkən auditor müəssisənin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil,şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir.Bundan əlavə,auditə mövcud uçot siyasətinin uyğunluğunun və rəhbərliyin uçot ehtimallarının əsaslandırılmasının qiymətləndirilməsi,eləcə də maliyyə-vergi



Khojaly ave. 55, Xatai district AGA Business Centre, 9th Floor AZ1025, Baku, Azerbaijan Mob: +994 50 212 33 02

hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.Biz hesab edirik ki,əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

**"ONZ ACCOUNTING" MMC-nin**

**Direktoru/Auditoru** **Nurlan Orucov**

24 İyul 2023-cü il

Bakı şəhəri.



Khojaly ave. 55, Xatai district AGA Business Centre, 9th Floor AZ1025, Baku, Azerbaijan Mob: +994 50 212 33 02

## Maliyyə Vəziyyəti Haqqına Hesabat 31 Dekabr 2022-ci il tarixinə

## JL TECH MMC

| Göstəricilər | 2 022 | 2 021 |
|---|---|---|
| *Uzun Muddətli aktivlər* | *90 764* | *115 717* |
| Əsas Vəsaitlərin dəyəri | 90 764 | 115 717 |
| 1.1.3 Naqliyyat vasitalari | 80 900 | 107 867 |
| 1.1.5 Digər əsas vəsaitlar | 3 571 | 2 049 |
| hesablama texnikası | 6 293 | 5 802 |
| 1.2 Qeyri-maddi aktivlarin dəyəri | | |
| *Qısamüddətli aktivlər* | 239 997 | 235 738 |
| 1.3 Ehtiyatlar | – | – |
| 1.3.1 Hazır mahsul | | |
| 1.3.2 Mallar | | |
| 1.4 Debitor borcları | – | – |
| 1.5 Pul vəsaitlari | 56 508 | 1 869 |
| 1.9 Gələcək dövrün xərcləri | | |
| 1.10 Digər aktivlər | 183 489 | 233 869 |
| *CƏMİ AKTİVLƏR* | *330 761* | *351 455* |
| | | |
| *KAPITAL Və ÖHDƏLIKLƏR* | | |
| *2.1 CƏMI KAPITAL* | *239 997* | *235 738* |
| 2.1.1 Nizamnamə kapitalı | | |
| 2.1.2 Hesabat dövrünün xalis mənfəəti | 239 997 | 235 738 |
| 2.1.5 Kapital ehtiyatları | | |
| | | |
| *Cəmi öhdəliklər* | *90 764* | *115 717* |
| | | |
| *Uzun muddətli öhdəliklər* | – | – |
| 2.2.1.1 Bank kreditləri | | |
| | | |
| Qısa müddətli öhdəlikləri | 90 764 | 115 717 |
| 2.2.1.2 Alınmış avanslar | 383 | 383 |
| 2.2.1.3 Dövlat büdcəsinə vergi öhdəlikləri | | |
| 2.2.1.5 Sair kreditor borcları | | |
| 2.2.3 Digər öhdəliklər | 90 381 | 115 334 |
| | | |
| *R* | *330 761* | *351 455* |

Azərbaycan Respublikası "JL TECH" MMC JOINT LOGIC TECHNOLOGIES "JL TECH" LLC The Republic of Azerbaijan

İsayev A.M.

Direktor:

Baş mühasib:



Khojaly ave. 55, Xatai district AGA Business Centre, 9th Floor AZ1025, Baku, Azerbaijan Mob: +994 50 212 33 02

**31 Dekabr 2022-ci il tarixində bitən il üzrə Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat**

# JL TECH MMC

| *Göstəricilər* | 2 022 | 2 021 |
|---|---|---|
| İşlərin görülməsindən, xidmətlərin göstərilməsindən gəli | 3 740 520 | 2 261 602 |
| | | |
| | | |
| **Ümumi gəlirlər** | 3 740 520 | 2 261 602 |
| görülməsi ilə bagli xərclər | | 449 616 |
| Malın dəyəri | 2 536 902 | 1 504 278 |
| Əmək haqqı və ona bərabərtutulan ödəmələr | 72 345 | 11 314 |
| Sosial sığorta haqqları | 15 162 | 2 132 |
| Ezamiyyə xərcləri | | |
| Icarə haqqı | 18 240 | 20 880 |
| Enerji xərci | 401 | 185 |
| Qaz xərci | | |
| Yanacaq xərcləri | 1 691 | |
| Nəqliyat xərci | | |
| Rabitə xərci | 2 731 | 2 187 |
| Bank xidmati üzra xarclar | 13 487 | 2 540 |
| Rezident üzrə faizlər | | |
| Gəlirdən çıxılmayan xərclər | | |
| Royalti | | |
| Reklam xərci | | |
| Ödənilmiş sığorta haqqları | 3 926 | 41 |
| Gəlirdən çıxılan vergilər və yığımlar | | |
| Digər xərclər | 1 040 879 | 200 708 |
| Cəmi əməliyyat xərcləri | 3 705 763 | 2 193 882 |
| | | |
| **Cəmi əməliyyat xərclərindən sonra mənfəət** | 34 757 | 67 720 |
| Amortizasiya ayırmaları | 29 433 | 64 471 |
| Mənfəət vergisi | 1 065 | 650 |
| | | |
| **Xalis mənfəət və zərər** | 4 259 | 2 600 |

Azərbaycan Respublikası "JL TECH" MMC JOINT LOGIC TECHNOLOGIES "JL TECH" LLC The Republic of Azerbaijan

İsayev A.M.

Direktor:

Baş mühasib:

*Əlavə olunmuş qeydlər bu maliyyə hesabatının ayrılmaz tərkib hissəsidir.



Khojaly ave. 55, Xatai district AGA Business Centre, 9th Floor AZ1025, Baku, Azerbaijan Mob: +994 50 212 33 02

31 Dekabr 2022-ci il tarixində bitən il üzrə Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

# JL TECH MMC

| Göstəricilər | 2 022 | 2 021 |
|---|---|---|
| **Əməliyyat fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti:** | | |
| Vergidən əvvəl mənfəət | 4 259 | 2 600 |
| Köhnəlmə və amortizasiya xərcləri | 29 433 | 64 471 |
| **Əməliyyat aktivlərində və öhdəliklərində dəyişikliklər :** | | |
| 1.3.2 Mallar | - | - |
| 1.9 Galacak dövrün xarclari | - | - |
| 1.10 Digar aktivlar | 50 380 | (731) |
| 2.2.1.2 Alınmış avanslar | - | (77 695) |
| 2.2.1.3 Dövlat büdcasina vergi öhdaliklari | - | - |
| 2.2.1.5 Sair kreditor borcları | - | - |
| 2.2.3 Digar öhdəliklər | (24 953) | 16 987 |
| **Əməliyyat fəaliyyətində istifadə olunan xalis pul vasaitləri** | **59 118** | **5 632** |
| **İnvestisiya fəaliyyətləri üzrə pul vəsaitlərinin hərəkəti:** | | |
| Mülkiyyət və avadanlığın alınması | (4 479) | (3 763) |
| Qeyri -maddi aktivlərin alınması | - | - |
| **İnvestisiya fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | **(4 479)** | **(3 763)** |
| **Maliyyə fəaliyyətləri yaranan pul vəsaitlərinin hərəkəti:** | | |
| Bank və maliyyə institutlarından kredit və depozitlər | - | - |
| Nizamnamə kapitalının artımı | (0) | 0 |
| Ödənilmiş dividentlər | - | - |
| **Maliyyə fəaliyyətlərində istifadə olunan xalis pul vasaitləri** | **(0)** | **0** |
| **Pul vəsaiti və ekvivalentlərində xalis fərq** | **54 639** | **1 869** |
| | | |
| Ilin əvvəlində pul vəsaiti və onların ekvivalentləri | 1 869 | - |
| Ilin sonuna pul vəsaitləri və onların ekvivalentləri | 56 508 | 1 869 |

Azərbaycan Respublikası "JL TECH" MMC JOINT LOGIC TECHNOLOGIES "JL TECH" LLC The Republic of Azerbaijan

İsayev A.M.

Direktor:

Baş mühasib:

*Əlavə olunmuş qeydlər bu maliyyə hesabatının ayrılmaz tərkib hissəsidir.



Khojaly ave. 55, Xatai district AGA Business Centre, 9th Floor AZ1025, Baku, Azerbaijan Mob: +994 50 212 33 02

## 31 Dekabr 2022-ci il tarixində bitən il üzrə İştirakçı kapitalında Dəyişikliklər Hesabatı

# JL TECH MMC

| | Nizamnamə kapitalı | Əvvalki illər üzrə bölüşdürülməmiş mənfəət | Emissiya gəliri | Kapital ehtiyatları | Cəmi |
|---|---|---|---|---|---|
| **1 yanvar 2021-ci il tarixinə qalıq** | - | **233 138** | - | | **233 138** |
| Uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | | |
| 1 yanvar 2021-ci il tarixinə düzəlişlərdən sonra qalıq | - | 233 138 | - | - | 233 138 |
| Aktivlərin yenidən qiymətləndirilməsi | | | | | - |
| Kapital qoyuluşu | | | | | - |
| Mənfəət və zərər haqqında hesabatda tanınmamış gəlirlər və xərclər | | | | | - |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | 2 600 | | | 2 600 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | - |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | | | - |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | | - |
| köçürülmələrindən əvvəl 31 dekabr 20X1-ci il tarixinə qalıq | - | **235 738** | - | - | 235 738 |
| Kapitalın maddələr arasında köçürülmələr | | | | | - |
| 31 dekabr 2021-ci il tarixinə qalıq | - | 235 738 | - | - | 235 738 |
| **2021-ci il üzrə kapitalda dəyişikliklərin cəmi** | - | **235 738** | - | - | **235 738** |
| | | | | | |
| **1 yanvar 2022-ci il tarixinə qalıq** | - | **235 738** | - | - | **235 738** |
| Uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | | - |
| 1 yanvar 2022-ci il tarixinə düzəlişlərdən sonra qalıq | - | 235 738 | - | - | 235 738 |
| Aktivlərin yenidən qiymətləndirilməsi | | | | | - |
| Kapital qoyuluşu | | | | | - |
| Mənfəət və zərər haqqında hesabatda tanınmamış gəlirlər və xərclər | | | | | - |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | 4 259 | | | 4 259 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | - |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | - | | | - |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | | - |
| **köçürülmələrindən əvvəl 31 dekabr 2022-ci il tarixinə qalıq** | - | **239 997** | - | - | 239 997 |
| Kapitalın maddələr arasında köçürülmələr | | | | | - |
| 31 dekabr 2022-ci il tarixinə qalıq | - | 239 997 | - | - | 239 997 |
| **2022-ci il üzrə kapitalda dəyişikliklərin cəmi** | - | **239 997** | - | - | **239 997** |

İsayev A.M.

Direktor:

Baş mühasib:

*Əlavə olunmuş qeydlər hesabatın ayrılmaz tərkib hissəsidir.



Khojaly ave. 55, Xatai district AGA Business Centre, 9th Floor AZ1025, Baku, Azerbaijan Mob: +994 50 212 33 02

## Maliyyə hesabatları ilə bağlı qeydlər

### 1. Şirkətin əasa fəaliyyəti

JL TECH MMC ("Şirkət") 16.01.2017-ci il Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən yaradılmış və Azərbaycan Respublikasında fəaliyyət göstərməkdədir.Şirkətin nizamnamə kapitalı Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinin Kommersiya hüquqi şəxslərin Dövlət qeydiyyatı idarəsi tərəfindən verilmiş VÖEN: 2004130131; 27.09.2021-ci il tarixli son çıxarışa əsasən 10 manat təşkil edir.

| Təsisçilər | 2022 (%) | 2021 (%) |
|---|---|---|
| İsayev A.M. | 100% | 100% |
| | | |
| Cəmi | 100% | 100% |

**Şirkətin hüquqi ünvanı:** AZ1129. Bakı ş., Xətai r-nu., Məhəmməd Hadi, ev 63A, mən 128.
**Şirkətin faktiki ünvanı:** AZ1129. Bakı ş., Xətai r-nu., Məhəmməd Hadi, ev 63A, mən 128.

**Təqdimat valyutası:** Hazırkı maliyyə hesabatındakı məbləğlər başqa cür qeyd olunmadığı təqdirdə,Azərbaycan Manatı ilə ("AZN") ifadə olunmuşdur.

### 2. Şirkətin əməliyyat mühiti

Şirkətin əməliyyatları Azərbaycan Respublikasında həyata keçirilir. Azərbaycan iqtisadi islahatları aparmağa və hüquqi, vergi və nizamlayıcı infrastrukturu təkmilləşdirməyə davam edir. Azərbaycan iqtisadiyyatının gələcək sabitliyi önəmli dərəcədə islahatlardan, dövlət tərəfindən aparılan iqtisadi, maliyyə və monetar tədbirlərin effektivliyindən və Azərbaycan manatının sabitliyindən asılıdır.

2020-ci ilin əvvəllərində ölkədə iqtisadi artım müşahidə edilsə də, dünyada COVID-19 pandemiyasının geniş yayılması dünya ölkələrinin iqtisadiyyatına ciddi təsir göstərməklə yanaşı, ölkə iqtisadiyyatına da təsirsiz ötüşməmişdir.

Pandemiyanın və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların iqtisadiyyata, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı tədbirlərin görülməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına əsasən, iş yerlərinin və sosial sabitliyin qorunması, iqtisadi şəffaflığın artırılması, işgüzar fəallığın qorunmasına vergi stimullarının verilməsi, iqtisadiyyata və sahibkarlığa dövlətin kredit-zəmanət dəstəyinin

verilməsi, güzəştli şərtlərlə kredit resurslarına çıxış imkanının genişləndirilməsi və post-pandemiya dövründə iqtisadi artımın yeni modelinin tətbiqi istiqamətində təxirəsalınmaz


Khojaly ave. 55. Xatai district AGA Business Centre. 9th Floor AZ1025. Baku. Azerbaijan Mob: +994 50 212 33 02

tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuş və hazırda icrası davam etdirilir.

## 3. Əsas uçot siyasətlərinin qısa xülasəsi

### Maliyyə hesabatlarının hazırlanmasının əsası

Şirkətin maliyyə hesabatları Beynəlxalq Maliyyə Hesabatı Standartlarına ("BMHS") uyğun olaraq hazırlanmışdır. Bu maliyyə hesabatlarının hazırlanmasında istifadə olunan əsas uçot prinsipləri təqdim edilmiş bütün dövrlərə ardıcıl şəkildə tətbiq edilmişdir.

31 dekabr 2022-ci il tarixində başa çatan illər üzrə hazırkı maliyyə hesabatları Şirkətin BMHS-a uyğun olaraq hazırlandığı illik maliyyə hesabatlarıdır.

### Taqdimatın əsasları

Maliyyə hesabatları aşağıda göstərilmiş mühasibat uçotu prinsiplərində başqa cür qeyd olunmayıbsa (məsələn, müəyyən maliyyə alətləri ədalətli dəyər prinsipi ilə ölçülür) ilkin dayar prinsipinə əsasən hazırlanmışdır.

Ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında aparılan əməliyyatlarda aktivin satılması zamanı alınan va ya öhdəliyin köçürülməsi zamanı ödənilən qiymətdir.

### Fəaliyyətin fasiləsizliyi

Rəhbərlik hazırkı maliyyə hesabatlarını fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlamışdır. Bu mülahizənin irəli sürülməsində rəhbərlik mövcud planları, əməliyyatların rentabelliyini və maliyyə resurslarına giriş imkanını nəzərə almışdır.

### Fərziyyələr

Maliyyə hesabatlarının MHBS-a uyğun hazırlanması maliyyə hesabatlarında göstərilən məbləğləri, xüsusilə də aşağıdakı maddələrə təsir edən təxmin və fərziyyələr hazırlamağı tələb edir:

- amortizasiya və amortizasiya dərəcələri;

- ümidsiz borclar üzrə zərərlərin hesablanması;

- qeyri-maddi aktivlərin və qudvilin dəyərsizləşməsi;

- müddəaların və pensiya müavinlərinin ölçülməsi;

- səhmdarlar;

- paylara əsaslanan ödəniş xərclərinin ölçülməsi;

- risklər və xərclər üçün ehtiyatlar,

- biznes birləşməsinin bir hissəsi kimi əldə edilmiş qeyri-maddi aktivlərin ölçülməsi;

- təxirə salınmış vergitutma.

Qiymətləndirmələr maliyyə hesabatlarının hazırlanmasında mövcud olan məlumatlara əsaslanır və gələcək dövrdə şərtlər dəyişdirildikdə və ya yeni məlumatlar mövcud olduqda yenidən baxıla bilər. Faktiki nəticələr bu taxminlərdən fərqlənə bilər.



Khojaly ave. 55, Xatai district AGA Business Centre, 9th Floor AZ1025, Baku, Azerbaijan Mob: +994 50 212 33 02

**Maliyyə alətləri-əsas qiymətləndirmə üsulları.** Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya olunmuş maya dəyərində qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

**Ədalətli dəyər** müstəqil şəkildə fəaliyyət göstərən yaxşı məlumatlandırılmış müstəqil tərəflər arasında əməliyyatın ümumi şərtlər əsasında həyata keçirildiyi zaman aktivin mübadilə edilə bildiyi və ya öhdəliyin yerinə yetirildiyi məbləği təşkil edir. Ədalətli dəyər fəal bazarda alınıb satılan maliyyə aktivləri üzrə cari tələb qiymətini və maliyyə öhdəlikləri üzrə cari təklif qiymətini əks etdirir. Bazar riskləri qarşılıqlı şəkildə əvəzləşdirilən aktiv və öhdəliklər ilə əlaqədar Təşkilat qarşılıqlı surətdə əvəzləşdirilən risklər üzrə ədalətli dəyər göstəricilərinin müəyyən

edilməsi üçün orta bazar qiymətlərindən istifadə edə bilər və xalis açıq mövqeyə müvafiq tələb və təklif qiyməti tətbiq edə bilər. Maliyyə aləti fəal bazarda o zaman sərbəst surətdə alınıb satıla bilən aktivlər kimi qəbul edilir ki, onların qiymətləri haqqında məlumat fond birjasında və ya digər maliyyə təşkilatından sərbəst və müntəzəm şəkildə əldə edilə bilsin və bu zaman həmin qiymətlər könüllü şəkildə bazar şərtləri çərçivəsində həyata keçirilən real və müntəzəm əməliyyatları əks etdirsin.

Bazar qiymətləri mövcud olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün diskont edilmiş pul vəsaitlərinin hərəkəti modeli, könüllü şəkildə həyata keçirilən ən son əməliyyatlar haqqında məlumata əsaslanan modellər kimi qiymətləndirmə üsulları, eləcə də investisiya qoyulan müəssisələr haqqında maliyyə məlumatlarının təhlili istifadə edilir. Qiymətləndirmə üsulları müşahidə edilə bilən bazar məlumatları ilə dəstəklənməyən fərziyyələrin istifadə olunmasını tələb edə bilər. Bu fərziyyələrin hər-hansı birinin mümkün alternativ variantla əvəz edilməsi nəticəsində mənfəət, gəlir, aktiv və öhdəliklərin əhəmiyyətli dərəcədə dəyişməsinə səbəb olacaq hallar barədə məlumat hazırkı maliyyə hesabatlarında açıqlanır.

**İlkin dəyər** alış tarixinə aktivi almaq üçün ödənilmiş pul vəsaitlərini və ya onların ekvivalentlərinin məbləğini və yaxud verilmiş digər resursların ədalətli dəyərini əks etdirir və əməliyyat xərclərini ehtiva edir. İlkin dəyərlə qiymətləndirmə yalnız bazar qiymətləri olmayan və ədalətli dəyəri etibarlı şəkildə ölçülə bilməyən pay alətlərindəki investisiyalara tətbiq edilir.

**Əməliyyat xərcləri** əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərclər əməliyyatın həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir.Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri maliyyə xərclərinə daxil edilmir.

**Amortizasiya olunmuş maya dəyəri** əsas məbləğin ödənilməsi çıxılmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər-hansı silinməni çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər-hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya olunmuş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatın müvafiq maddələrinin balans dəyərinə daxil edilir.


Khojaly ave. 55, Xatai district AGA Business Centre, 9th Floor AZ1025, Baku, Azerbaijan Mob: +994 50 212 33 02

**Effektiv faiz metodu** maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər xaric olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir. Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini aks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dayərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir (gəlir və xərclərin uçotu siyasətinə baxın).

**Torpaq, tikili, avadanlıqlar və qeyri-maddi aktivlər** ilkin dəyər yığılmış köhnəlmə və amortizasiya və hər hansı tanınmış dəyərsizləşmə zərərinin çıxılması ilə əks etdirilir. Natamam tikililərin və istifadəyə verilməyən obyektlərin amortizasiyasi istifadəyə hazır olduğu tarixdən hesablanır. Köhnəlmə əmlak, tikili və avadanlığın qalıq dəyərinə hesablanır və aşağıdakı faiz dərəcələri üzrə aktivin dəyərinin 5 faizinə qədər azalan qalıq metodu ilə amortizasiyası olunur:

Təmir və yenilənmə xərcləri kapitallaşdırma tələblərinə cavab vermədiyi hallarda baş verdiyi tarixdə tanınır və inzibati xərclərə daxil edilir.

Müəyyən faydalı xidmət müddətinə malik qeyri-maddi aktivlər ayrıca əldə olunur və alınma dəyərindən yığılmış amortizasiya və dəyərsizləşmə zərəri çıxılmaqla balansa alınır. Amortizasiya düzxətli metodla faydalı xidmət müddəti ərzində hesablanır. Ehtimal olunan faydalı xidmət müddəti hər hansı bir dəyişikliyin təsiri propektiv

şəkildə tətbiq olunmaqla hər hesabat ilinin sonunda nəzərdən keçirilir. Qeyri-müəyyən faydalı xidmət müddətinə malik qeyri-maddi aktivlər alınma dəyərindən yığılmış dəyərsizləşmə zərərləri çıxılmaqla balansda tanınır.

**Borc götürülmüş digər vəsaitlər**. Borc götürülmüş digər vəsaitlər Təşkilata nağd pul və ya digər aktivlər verildiyi andan qeydə alınır. Qeyri-derivativ maliyyə öhdəlikləri amortizasiya olunmuş maya dəyərində qeydə alınır. Təşkilat verdiyi borcları geri aldıqda, həmin borc öhdəlikləri maliyyə vəziyyəti haqqında hesabatdan silinir və öhdəliyin balans dəyəri ilə ödənilmiş məbləğ arasındakı fərq borcun ödənilməsi üzrə yaranan gəlir və ya xərclərə aid edilir.

**Gəlirlərin tanınması**. Malların satışından gəlirlər onlarla bağlı bütün risklərin və mülkiyyət hüququ ilə birlikdə gələcək faydaların alıcıya ötürüldüyü anda, bir qayda olaraq, mallar daşındığı zaman qeydə alınır. Müəssisə malların müəyyən bir yerə çatdırılması üçün razılaşarsa mal təyinat nöqtəsində müştəri tərəfindən qəbul edildiyi zaman gəlir tanınır.

Xidmətlərdən yaranan gəlir təmin ediləcək olan bütün xidmətlərin nisbəti kimi göstərilmiş və uçot dövrünün onunda tamamlanmış konkret faktiki xidmətlərə istinadən tanımır. Satışlar ƏDV və endirimlər çıxıldıqdan sonra göstərilir.

Gəlirlər alınmış və ya alınacaq vəsaitlərin ədalətli dəyəri ilə qiymətləndirilir. Barter əməliyyatı ilə qəbul edilmiş malların ədalətli dəyəri etibarlı əsasda qiymətləndirilə bilmədikdə, gəlir verilmiş mal və ya xidmətin ədalətli dəyərilə ölçülür.



Khojaly ave. 55, Xatai district AGA Business Centre, 9th Floor AZ1025, Baku, Azerbaijan Mob: +994 50 212 33 02

**Təxirə salınmış vergi aktivinin uçotu**. Təxirə salınmış mənfəət vergisi aktivi müvafiq vergi faydasının realizasiya oluna biləcəyi zaman qeydə alınır.

Qeyri-maliyyə aktivlərinin qiymətdən düşməsi. Rəhbərlik hər hesabat tarixinin sonunda aktivlərin balans dəyərinin bərpasım mümkünsüzlüyünü göstərən keçmiş hadisə və vəziyyətlərə istinad edərək bütün qeyri-maliyyə aktivlərinin dəyərində mümkün qiymətdən düşmə göstəricilərini müəyyən edir. Belə göstəricilərə Müəssisənin biznes planı, əmtəələrin qiymətində səmərəsiz fəaliyyətə səbəb olan dəyişikliklər, məhsul qarışıqlarında olan farqlər, qaz və neft mülkiyyəti üçün güman olunan ehtiyatların azalma tendensiyası ehtimalları daxildir. Qudvil və digər faydalı ömür müddəti bilinməyən qeyri-maddi aktivlər qiymətdən düşmə üçün hər il və qiymətdən düşmə göstəricisi aşkar olunanda yoxlanılır. Digər qeyri-maddi aktivlər qiymətdən düşmə üçün balans dəyərinin bərpa olmasının mümkünsüzlüyünün göstərici olduğu təqdirdə yoxlanılır.

İstehlak dəyəri ehtimal edildikdə rəhbərlik aktivlərdən və ya pul vəsaiti yaradan vahidlərdən gözlənilən gələcək nağd pul vəsaitlərinin hərəkətini ehtimal edir və həmin pul vəsaiti hərəkətinin hazırkı dəyərinin qiymətləndirilməsi üçün münasib faiz dərəcəsi seçir.

**Debitor borclarını dəyərsizləşməsi üzrə ehtiyatlar**.Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyatlar istehlakçıların debitor borclarının yığılması ehtimalının rəhbərlik tərəfindən qiymətləndirilməsinə əsaslanır. İstehlakçıların əhəmiyyətli maliyyə çətinlikləri, müqavilə üzrə tərəflərin müflisləşmə və ya maliyyə strukturunun yenidən təşkilinə məruz qalması ehtimalı və defolt və ya ödənişlərin gecikdirilməsi debitor borclarının potensial olaraq dəyərsizləşmiş olmasını əks etdirən göstəricilər hesab edilir. Əgər əsas müştərinin ödəniş qabiliyyətində pisləşmə baş verərsə və ya bu faktiki defolt taxminlərindən yuxarı olarsa, faktiki nəticələr bu təxminlərdən fərqlənə bilər. Əlavə olaraq, kiçik debitor borclarının böyük qismi oxşar qruplara birləşdirilir və məcmu şəkildə dəyərsizləşmə üzrə qiymətləndirilir. 12 aydan artıq dövriyyədə olan debitor borcları ümumilikdə müvafiq dəyərsizləşmə ehtiyatına silinir.

Debitor borclanı üzrə əlavə pul vəsaitlərinin bərpası gözlənilmədikdə, debitor borcları müvafiq ehtiyatlara silinir.

Dəyərsizləşmə üzrə zərərlərə qarşı qiymətləndirilən debitor borcları üzrə pul vəsaitlərinin gələcək hərəkəti həmin aktivlərin müqavilə üzrə pul vəsaitlərinin hərəkətinə, rəhbərliyin keçmişdə baş vermiş zərər halları nəticəsində vaxtı keçəcək məbləğlərin həcmi ilə münasibətdə təcrübəsinə və vaxtı keçmiş məbləğlərin geri ödənilməsinə Əsasən təxmin edilir. Keçmiş dövrlərə təsir göstərməyən cari şəraitin təsirini əks etdirmək və cari dövrdə mövcud olmayan keçmiş şəraitin təsirini aradan qaldırmaq məqsədilə əvvəlki təcrübə müşahidə edilə bilən cari məlumatlara əsasən tənzimlənir.

**Xarici valyutanın çevrilməsi .**

Şirkətin funksional valyutası onun fəaliyyət göstərildiyi iqtisadi mühitin valyutasıdır. Şirkətin funksional valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır ("AZN"). Çünki Şirkətin gəlirləri,xərcləri,alınmış mal-material ehtiyatları və öhdəliklərinin əhəmiyyətli hissəsinin qiymətləndirilməsi,çəkilməsi, ödənilməsi və ya digər yolla ölçülməsi AZN ilə həyata keçirilir.

Azərbaycan Respublikasının ərazisindən kənarda manat sərbəst dönərli valyuta deyil. Monetar aktiv və öhdəliklər Azərbaycan Respublikası Mərkəzi Bankının müvafiq


Khojaly ave. 55, Xatai district AGA Business Centre, 9th Floor AZ1025, Baku, Azerbaijan Mob: +994 50 212 33 02

hesabat tarixinə qüvvədə olan rəsmi valyuta məzənnəsinə əsasən müəssisənin funksional valyutasına çevrilir. Bu cür əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsi və Mərkəzi Bankın ilin sonuna olan rəsmi valyuta məzənnəsi ilə monetar aktiv və öhdəliklərin müəssisənin funksional valyutasına çevirilməsi nəticəsində yaranan müsbət və ya mənfi məzənnə fərqləri Mənfəət və ya Zərər Haqqında Hesabatda qeydə alınır. Bazar dərəcələri rəsmi dərəcələrdən fərqli ola bilər,lakin bu fərqlər ümumilikdə Mərkəzi Bank tərəfindən nəzarət edilən dar parametrlər çərçivəsindədir. Xarici valyuta ilə əməliyyat tarixində rəsmi məzənnə ilə qeydə alınır.

Xarici valyuta ilə qalıqların çevrilməsi üçün istifadə olunmuş rəsmi məzənnə dərəcələri aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| 1 ABŞ dolları / 1 AZN | 1,7000 | 1,7000 |
| Rusiya rublu / AZN | 0,0229 | 0,0230 |

**Ölçü və hesabat metodu .**

Maliyyə hesabatları hazırlanarkən mühasibat uçotunun hesablama metodu tətbiq olunmaqla ilkin dəyər uçot prinsiplərinə əsaslanmışdır.İlkin dəyər alış tarixinə aktivi almaq üçün ödənilmiş pul vəsaitləri və ya pul vəsaitləri ekvivalentlərinin məbləğini və yaxud verilmiş digər resursların ədalətli dəyərini əks etdirir və əməliyyat xərclərini ehtiva edir.

**Aktivlər .**

Şirkətin aktivləri özündə keçmiş hadisələrin nəticəsi kimi qurum tərəfindən idarə edilə bilən və ona gələcəkdə iqtisadi səmərə gətirə biləcəyi gözlənilən resursları birləşdirir ki, bunlar da maddi və qeyri-maddi, onlar da öz növbəsində müvafiq olaraq uzun və qısa müddətli kimi uçota alınır. Şirkətin uzunmüddətli aktivlərinə isə ticarət investisiyaları - yaxın gələcəkdə istifadəsi nəzərdə tutlmayan yatırımlar, dəyəri 500.00 manatdan aşağı olmayan, 12 ay müddətində realizasiya ediləcəyi ehtimal olunmayan əsas vəsaitlər daxildir.

Şirkətin qısamüddətli aktivlərinə likvidlik dəyəri yüksək olan, əsasən alqı-satqı məqsədləri və ya istifadə üçün saxlanılan, hesabat tarixindən sonra 12 ay müddətində realizasiya ediləcəyi ehtimal olunan, həmçinin hesabat tarixindən növbəti 12 ay müddətində mübadiləsinə və ya istifadəsinə məhdudiyyət qoyulmayan pul vəsaiti və ya onun ekvivalentləri daxildir.

**Öhdəliklər .**

Şirkətin öhdəlikləri onun keçmiş hadisələrdən yaranmış və ödənilməsi özündə iqtisadi səmərəni təcəssüm etdirən resurslarının qurumdan kənara axını ilə nəticələnən mövcud borcu olmaqla, uzun və qısamüddətli kimi təsnifləşdirilir.

Şirkətin uzunmüddətli öhdəliklərinə yaxın gələcəkdə ödənilməsi nəzərdə tutulmayan borclar, 12 ay müddətində realizasiya ediləcəyi ehtimal olunmayan digər borclar, kreditlər daxildir.

Şirkətin qısamüddətli öhdəliklərini müəssisənin adi əməliyyat dövründə ödənilməsi nəzərdə tutulan, hesabat tarixindən etibarən 12 ay ərzində ödənilməsi ehtimal edilən və öhdəliyin yerinə yetirilməsi üçün hesabat tarixindən ən azı 12 ay müddətinə kimi ödənilməsini tələb edən şərtsiz hüquqa malik olduğu öhdəliklər təşkil edir.

**Kapital .**

Kapital bütün öhdəliklər çıxıldıqdan sonra, qurumun xalis aktivlərinin dəyəridir ki, ona nizamnamə kapitalı, cari ilin mənfəəti (zərəri), keçmiş illərin bölüşdürülməmiş mənfəəti (zərəri) aiddir.

**Məhkəmə prosesləri .**

Normal iş prosesi zamanı Şirkətə qarşı hər hansı hüquqi iddialar və şikayətlər ola bilər. Müəssisə rəhbərliyi hesab edir ki, bu iddialarla bağlı hər hansı bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq maliyyə hesabtlarında zərərlərin ödənilməsi üçün ehtiyat yaradılmamışdır. 31 dekabr 2022-ci il tarixində tamamlanan il ərzində Şirkət hər hansı məhkəmə prosesinə cəlb olunmamış və ona qarşı hər hansı iddia irəli sürülməmişdir.

**Vergi qanunvericiliyi .**

Azərbaycan Respublikasının vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez- tez baş verə bilən dəyişikliklərə məruz qalır. Şirkətin əməliyyatları və fəaliyyəti ilə bağlı vergi qanunvericiliyinə dair rəhbərliyin mövqeləri müvafiq vergi orqanları tərəfindən sual altında qoyula bilər. Bunun nəticəsində Şirkətin göstərdiyi xidmətlərə görə ona qarşı bazar qiyməti tətbiq edərək müəyyən əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. Vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəaliyyəti yoxlanıla bilər. Müəyyən hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.
Şirkət rəhbərliyi hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, xarici valyuta və gömrük qanunvericiliyi ilə bağlı Şirkətin mövqeləri dəyişilməyəcəkdir.

**Mənfəət vergisi.**

Mənfəət vergisi hazırkı maliyyə hesabatlarında qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş müvafiq qanunvericiliyinə uyğun olaraq göstərilmişdir Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir və bu və ya digər


Khojaly ave. 55, Xatai district AGA Business Centre, 9th Floor AZ1025, Baku, Azerbaijan Mob: +994 50 212 33 02

dövrdə bilavasitə kapitalda qeydə alınan əməliyyatlar istisna olmaqla, məcmu gəlirlər haqqında hesabatda qeydə alınır.

Cari mənfəət vergisi, cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Mənfəət vergisindən başqa digər vergilər Əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə, aktiv və passivlərin vergi bazası və maliyyə hesabatlarının hazırlanması məqsədilə onların balans dəyəri arasında yaranan keçmiş illərin vergi zərəri və bütün müvəqqəti fərqlər üçün hesablanır. Təxirə salınmış vergi qalıqları, balans tarixinə qüvvədə olan vergi dərəcələrinə Əsasən müvafiq təxirə salınmış mənfəət vergisi öhdəliyi aktivi müvəqqəti fərqlərin qaytarılacağı və ya keçmiş illərdən yığılmış vergi zərərlərinin istifadə ediləcəyi dövrdə tətbiq edilməli vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Təxirə salınmış vergi aktivi və ya öhdəliyi ancaq bir müəssisə daxilində əvəzləşdirilə bilər. Təxirə salınmış vergi aktivi müvəqqəti fərqlərdən yaranan və eləcə də keçmiş illərdən gələn zərərdən yaranmış olan vergi aktivi ancaq o vaxt istifadə edilə və ya tanına bilər ki, gələcək illərdə müəssisənin gəlir əldə edəcəyi guman edilir.

Təxirə salınmış vergi aktivləri mövcud fərqlərin gələcək vergi mənfəətindən tutulması mümkün olacağı halda tanınır.

Təxirə salınmış mənfəət vergisi müvəqqəti fərqlərin bərpa vaxtına Cəmiyyət tərəfindən nəzarət olunması və müvəqqəti fərqlərin yaxın gələcəkdə dəyişilməsi ehtimalının mümkünlüyu istisna olmaqla şərik və törəmə müəssisələrə qoyulan investisiyalardan irəli gələn müvəqqəti fəqlərdən təmin olunur.

**Əlavə dəyər vergisi .**

Vergi qanunvericiliyi satış və alışlar üzrə əlavə dəyər vergisinin (ƏDV) əvəzləşdirilərək ödənilməsinə icazə verir.
ƏDV üzrə ödəniləcək məbləğlər maliyyə vəziyyəti haqqında hesabat tarixinə ödənilmiş alışlar üzrə ƏDV-ni çıxmaqla, sifarişçilərə satışlar tanınanda vergi orqanları vasitəsilə dövlət büdcəsinə ödəniləcək satışlara aid olan ƏDV məbləğindən ibarətdir. Bundan əlavə, maliyyə vəziyyəti haqqında hesabat tarixinə ödənilməmiş satışa aid olan ƏDV də ƏDV üzrə ödəniləcək məbləğlərə daxil edilir. Əvəzləşdirilə bilən ƏDV maliyyə vəziyyəti haqqında hesabat tarixinə ödənilməmiş alışlara aiddir. Əvəzləşdirilə bilən ƏDV alışlar üçün ödəmə aparıldıqda satış üzrə ƏDV hesabı ilə əvəzləşdirilə bilər.

**4. Əsas vəsaitlər**

Müəssisənin əsas vəsaitləri mühasibat uçotu və hesabatında ilkin dəyəri ilə, yəni onların alınmasına, quraşdırılmasına və hazırlanmasına, həmçinin istismara verilməsinə çəkilən faktiki xərc məbləğində əks etdirilir. Əsas vəsaitlərin ilkin dəyəri onlar yenidən qiymətləndirildikdə, yenidən qurulduqda, onlara yeni avadanlıqlar quraşdırıldıqda və onların müvafiq obyektləri qismən ləğv edildikdə dəyişdirilə bilər.

Auditlə əhatə olunan dövr ərzində əsas vəsaitlərin yenidən qiymətləndirilməsi həyata keçirilməmişdir.


Khojaly ave. 55, Xatai district AGA Business Centre, 9th Floor AZ1025, Baku, Azerbaijan Mob: +994 50 212 33 02

Maddi aktivlərin işlənib təkmilləşdirilməsi

Əsas vəsaitlərin satışından yaranan gəlir və zərər satışdan əldə olunmuş vəsaitlərin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və mənfəət və ya zərərə daxil edilir.
Bütün kiçik həcmli təmir və istismar xərcləri çəkildiyi zaman xərcə silinir. Əsas vəsaitlərin əsas hissələrinin və ya komponentlərinin dəyişdirilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr istismardan çıxarılır. Əsas vəsaitlər ilə bağlı sonrakı xərclər müvafiq olaraq aktivin balans dəyərində və ayrıca aktiv kimi yalnız o halda tanınır ki, həmin aktivlə bağlı gələcək iqtisadi səmərənin Şirkətə daxil olması ehtimal edilsin və onun dəyəri etibarlı şəkildə ölçülə bilsin.

Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası, maşın və avadanlıqlar və digər əsas vasitələr üzrə köhnəlmə azalan qalıq dəyəri metodunu istifadə etməklə hesablanır. Köhnəlmənin azalan qalıq dəyəri metodu aktivin əvvəlki ilin sonuna qalıq dəyərinə cari ildə daxil olmuş əsas vəsaitlərin dəyərini gəlməklə müvafiq qanunvericiliklə müəyyənləşdirilmiş amortizasiya normalarını tətbiq etməklə h

| **Əsas vəsaitlər** | **Amortizasiya normaları** |
|---|---|
| Binalar, tikililər və ötürücü qurğular | 7%-dək |
| Maşınlar və avadanlıqlar | 20%-dək |
| Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası | 25%-dək |
| Nəqliyyat vasitələri | 25%-dək |
| Digər əsas vəsaitlər | 20%-dək |

nır.

Əsas vəsaitlər yığılmış köhnəlmə çıxılmaqla, aşağıda göstərilən dəyərlə uçota alınır:

| | 2 022 | 2 021 |
|---|---|---|
| Əsas vəsaitlər | 90 764 | 115 717 |
| 1.1.1 Binalar tikintilər və qurğular | - | - |
| 1.1.2 Maşınlar va avadanlıq | - | - |
| 1.1.3 Naqliyyat vasitalari | 80 900 | 107 867 |
| 1.1.4 Iş heyvanları | - | - |
| 1.1.5 Digər əsas vəsaitlar | 3 571 | 2 049 |
| texnikası | 6 293 | 5 802 |

## 5. Qeyri – maddi aktivlər

Qeyri-maddi aktivlər uçot və hesabatda onların alınmasına və planlı məqsədlərə işlənməsi üçün düzəldilib yararlı hala salınmasına çəkilən xərclərlə, yəni ilkin dəyərilə əks etdirilir. Qeyri-maddi aktivlərin istifadə müddəti məhdud və ya qeyri-müəyyən hesab edilir. İstifadə edildikcə istifadə müddəti məhdud olanlar üçün onların dəyəri istismar müddətindən (müəssisənin fəaliyyət müddətindən çox olmayaraq) asılı olaraq hər ay (bərabər miqdarda) köhnəlmə hesablanaraq tədavül xərclərinə silinməklə ödənilir. Faydalı istifadə müddəti qeyri-müəyyən olan qeyri-maddi aktivlər üzrə köhnəlmə normaları isə 10 faizədək müəyyən edilir ki, maliyyə hesabatlarının əhatə etdiyi dövrdə yuxarıda adı çəkilən xüsusiyyətlərə malik qeyri-maddi aktivə rast gəlinmişdir. Qeyri-maddi aktivlərin


Khojaly ave. 55, Xatai district AGA Business Centre, 9th Floor AZ1025, Baku, Azerbaijan Mob: +994 50 212 33 02

köhnəlməsi uçot və hesabatda ayrıca əks etdirilir.

| | 2 022 | 2 021 |
|---|---|---|
| 1.2 Qeyri-maddi aktivlərin dəyəri | - | - |

## 6. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə bank, kassa hesablarındakı vəsaitlər və ƏDV depozit hesabındakı pul vəsaitləri daxildir.

01 yanvar 2008-ci il tarixindən başlayaraq vergi orqanları ƏDV depozit hesablarını təqdim etmişdir və bu hesablar vasitəsilə əvəzləşdirilən və hesablanan ƏDV üzrə icbari ödəmələri tətbiq etmişdir. Bu yeni vergi qanunvericiliyinə uyğun olmaq üçün Şirkət ƏDV üzrə depozit hesabını açmışdır. Bu qanunvericiliyə uyğun olaraq ƏDV depozit hesabındakı qalıq vergi orqanlarına 45 gün əvvəl bildiriş göndərməklə çıxarılır.

| *Azərbaycan manatı ilə* | **31 dekabr 2022-ci il** | **31 dekabr 2021-ci il** |
|---|---|---|
| Kassada olan pul qalıqları | | |
| AZN ilə bank qalıqları | 52 020 | 1 089 |
| Xarici valyuta ilə bank qalıqları | | |
| ƏDV üzrə depozit hesabı | 4 488 | 780 |
| **Cəmi pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **56 508** | **1 869** |

## 7. Ticarət və digər debitor borcları

Ticarət debitor borcları aşağıdakılardan ibarət olmuşdur:

| | 2 022 | 2 021 |
|---|---|---|
| 1.4 Debitor borcları | - | - |
| 1.4.1 Dövlət büdcəsinə (vergilar üzrə) | - | - |
| 1.4.2 Sair debitor borclar | - | - |

## 8. Ticarət və digər kreditor borcları

Ticarət və digər kreditor borcları aşağıdakılardan ibarət olmuşdur:

| | 2 022 | 2 021 |
|---|---|---|
| Qısa müddətli öhdəlikləri | 90 764 | 115 717 |
| 2.2.1.2 Alınmış avanslar | 383 | 383 |
| 2.2.1.3 Dövlat büdcəsinə vergi öhdəlikləri | - | - |
| 2.2.1.4 Törəmə (asılı) müəssisələrə kreditor borcları | - | - |
| 2.2.1.5 Sair kreditor borcları | - | - |
| 2.2.2 Gələcək dövrün gəlirləri | - | - |
| 2.2.3 Digər öhdəliklər | 90 381 | 115 334 |

## 9. Satışdan gəlirlər

Şirkətin gəliri mülkiyyətçilərin kapital qoyuluşu ilə əlaqəli olmayan, lakin kapitalda artım ilə nəticələnən və hesabat dövrü ərzində aktivlərin daxil olması və ya artması və ya öhdəliklə



Khojaly ave. 55, Xatai district AGA Business Centre, 9th Floor AZ1025, Baku, Azerbaijan Mob: +994 50 212 33 02

alması şəklində iqtisadi səmərənin artımıdır.
Gəlirlərin məbləği etibarlı şəkildə qiymətləndirildikdə, gələcək iqtisadi səmərənin müəssisəyə daxil olması ehtimal edildikdə Şirkət gəliri tanıyır.
Gəlirlər Şirkətin adi fəaliyyətinin gedişində göstərilmiş təqdim edilmiş mallara, göstərilmiş xidmətlərə görə aldığı və ya alacağı məbləğin dəyərini əks etdirir.
Xidmətlərin satılması müqavilə üzrə göstəriləcək ümumi xidmətlərin müəyyən bir hissəsi olaraq faktiki göstərilmiş xidmətlər əsasında qiymətləndirilmiş konkret əməliyyatın tamamlanma mərhələsinə istinadən həmin xidmətlərin göstərildiyi uçot dövründə qeydə alınır. Satışdan gəlirlər aşağıdakılardan ibarət olmuşdur:

## 10. Gələcək dövrün xərləri

Müəyyən şərtlər daxilində müəssisələr, gələcək hesabat dövrünün hesabat tarixindən sonrakı dövrlərə aid edilən, lakin cari dövrdə çəkilmiş xərcləri uçotda əks etdirə bilər. Gələcək hesabat dövrlərinin xərcləri hesabı mövcud hesabat dövründə çəkilmiş, lakin gələcək hesabat dövrlərinə aid olan (12 aydan çox) xərclər haqqında məlumatları ümumiləşdirmək üçün nəzərdə tutulmuşdur.

## 11. Maliyyə risklərinin idarə edilməsi

Maliyyə riski amilləri. Fəaliyyətin adı gedişində Cəmiyyat alınan va satılan mallann deyişkən qiymətləri. Digər xammallarnı qiymətləri. valyuta məzənnələri və faiz dərəcələri nəticəsinda yaranan bazar riskləri ilə üzləşir. Qiymətlərdəki dayişikliklərdən asılı olaraq bazar qiymətlərindəki bu cür dayişikliklər Cəmiyyətin maliyyə Vəziyyətinin dəyişməsina səbəb ola bilər. Müəssisənin ümumi risk idarəetmə proqrami maliyyə bazarlarının qeyri-müəyyənliklərini əhatə edir və Cəmiyyətin maliyyə fəaliyyatinə potensial mənfi təsiri azaltmaqı nəzərdə tutur.

Maliyyə nəticələrinə təsir edə bilən müxtəlif risklərin səmərəli şəkildə idarə edilməsi üçün Cəmiyyətin əsas strategiyası güclü maliyyə mövqeyinin qorunub saxlanmasından ibarətdir. Maliÿyə riskinin vacib komponentləri likvidlik riski, xarici valyuta riski, faiz dərəcəsi riski və kredit riskidir.

Xarici valyuta riski. Xarici valyuta riski, maliyyə alətlərinin dəyərinin xarici valyuta məzənnələrindəki dəyişikliklərə görə dəyişməsi riskidir. Xarici valyuta ilə ifadə edilmiş aktivlər (banklardakı depozitlər və debitor borcları) və öhdəliklər (kredit borcları və digər öhdəliklər) xarici valyuta riskini yaradır. Xarici valyuta riskini idarə etmək üçün Cəmiyyət hər hansı rəsmi prosedurlara malik olmasa da, rəhbərlik fəaliyyət göstərdiyi sektorda baş verən tendensiyalardan kifayət qədər məlumatlıdır və bu cür risklərin azaldılması üçün bəzi tədbirlər görmüşdür.

Likvidlik riski. Likvidlik riski aktiv və öhdəliklərin ödəmə müddətlərinin uzlaşmadığı hallarda ortaya çıxır. Likvidliyin idarə edilməsinə Müəssisənin yanaşması həm adi, həm də qeyri-adi şəraitdə Cəmiyyətin nüfuzuna qəbul edilməyən zərər və ya risk zarari vurmamaqla, öhdəliklərin müddəti başa çatdıqda onların likvidliyini daim təmin etməkdən ibarətdir.


Khojaly ave. 55, Xatai district AGA Business Centre, 9th Floor AZ1025, Baku, Azerbaijan Mob: +994 50 212 33 02

Diskontlaşmanın təsiri əhəmiyyətli olmadığı üçün 1 il ərzində ödənilməli qalıqlar onların balans dəyərinə bərabərdir. Likvidlik risklərinin azaldılması üçün tədbirlər görülmüşdür.

## 16. Şərti öhdəliklər

Məhkəmə prosedurları. Vaxtaşırı olaraq və adi fəaliyyət gedişində Cəmiyyətə qarşı irəli sürülür. Cəmiyyətin Rəhbərliyi öz təxminlərinə, daxili və kənar peşəkarların məsləhətlərinə əsasən hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq hazırkı maliyyə hesabatlarında hər hansı ehtiyat yaradılmamışdır.

Kapital məsrəfləri ilə bağlı öhdəliklər. 31 dekabr 2022-ci il tarixlərinə Cəmiyyətin kapital məsrəfləri ilə bağlı əhəmiyyətli öhdəlikləri olmamışdır.

## 17. Hesabat tarixindən sonra hadisələr

Hesabat tarixindən sonra heç bir əhəmiyyətli hadisə baş verməmişdir.

Audit hesabatı 2 (iki) nüsxədən ibarət tərtib edildi.

"ONZ ACCOUNTING" MMC-nin
Direktoru/Auditoru

Nurlan Orucov

Cəmiyyət tərəfindən

JL TECH MMC-nin

Direktor:

İsayev A.M.

Baş mühasib:



Khojaly ave. 55, Xatai district AGA Business Centre, 9th Floor AZ1025, Baku, Azerbaijan Mob: